# Azərbaycan idmançılarının zəfər yolu

Düz 17 gün idi ki, Avropa və dünya ictimaiyyətinin gözü doğma Azərbaycanımızın paytaxtı Bakıya dikilmişdi. İdmançılar bu 17 gün ərzində ilk dəfə burada keçirilən I Avropa Oyunların gedişini böyük maraqla izlədildər. Oyunların keçirilməsinə görülən hazırlıq işləri və onun təşkili dünyanın bir sıra ölkələrindən gələn idman ictimaiyyətinin nümayəndələri, bu oyunları tamaşa eməyə gələn qonaqlar tərəfindən yüksək qiymətləndirildi. Hətta, Avropa Olimpiya Komitəsinin rəsmi şəxsləri, oyunlarda iştirak edən bir sıra atletlər mətbuata verdikləri müsahibə zamanı «Bakı- 2015» I Avropa Oyunlarının Olimpiya Oyunları səviyyəsində keçirildiyini, xüsusi istisnalıq təşkil etdiyini vurğulamışlar. Avropa Oyunları Komitəsinin Prezidenti Patrik Hikki də mətbuata açıqlamasında, «Bakı-2015» ilk Avropa Oyunları təşkilat komitəsinin və oyunların əməliyyat komitəsinin qısa müddətdə böyük işlər gördüklərini, hələ oyunlar başlamazdan əvvəl dünya rekorduna imza atdıqlarını söyləmişdir. Azərbaycan iqtisadi uğurlarla yanaşı neçə-neçə beynəlxalq tədbirlərə də ev sahibliyi etməklə dünya ölkələri arasında özünə böyük nüfuz qazanmışdır. İlk Avropa Oyunlrına da ev sahibliyi etməklə ölkəmiz bir daha dünya arenasında hansı nüfuza, hansı tqtisadi gücə malik olduğunu sübut etdi.



Eləcə də idman mütəxəssislərinin qeyd etdiyi kimi Azərbaycan bu möhtəşəm tədbirlə gələcək Olimpiya Oyunlarının yeni mərhələsinin əsasını qoydu və gələcək Olimpiya Oyunlarına iddiaçı ölkələrdən birinə çevrildi.

Bizcə müstəqilliyimizin cəmi 24 ilində Azərbaycan idmançılarının qısa da olsa zəfər yoluna nəzər salsaq bu sahədə oxucularımıza daha yaxşı aydınlıq gətirə bilərik. Mustəqil Azərbaycan ilk dəfə qatıldığı Atlanta Olimpiadasında (1996) atletlərimiz cəmi 1 medal qazanmışdırsa, Sidneydə (2000) 3 medal, Afinada (2004) 5 medal, Pekində (2008) 7 medal, nəhayət son Yay Olimpiya Oyunlarında-London-2012-də 10 medal qazanmışdır. Olimpiya yığmamız Sidneydə 199 ölkə arasında 34-cü, Afinada 202 ölkə arasında 50-ci, Pekində 205 ölkə arasında 39-cu, Londonda isə 204 ölkə arasında 30-cu yeri tutmuşdur.

Qeyd edilməlidir ki, Azərbaycanın qatıldığı İslam Həmrəyliyi Oyunlarında--müsəlman dünyasının olimpiadasında göstərdiyi nəticələr də çox uğurludur. Ölkəmiz ilk dəfə Məkkədə (Səudiyyə Ərəbistanı) keçirilmiş İslam oyunlarında 15 medal (4 qızıl, 4 gümüş, 7 bürünc) qazanaraq ölkələr üzrə sıralanmada 8-ci yeri tutmuşdur. II İslam Həmrəyliyi Oyunları Tehranda keçirilməli idi. Lakin İranla ərəb ölkələri arasında yaranmış mübahisə (fars körfəzi, yoxsa ərəb körfəzi barədə) zamanı idman tədbiri əvvəlcə növbəti ilə keçirilsə də sonralar baş tutmamış, ləğv edilmişdi. III İslam Həmrəyliyi Oyunları isə 2013-cü ildə İndoneziyanın Palembanq şəhərində keçirildi. Bu oyunlarda təmsilçilərimiz 24 medalla (7 qızıl, 8 gümüş, 9 bürünc) iştirakçı ölkələr arasında 7-ci yeri tutmuşlar.

Cəmi iki gün bundan əvvəl 17 gün davam edən ilk Avropa Oyunlarında təmsilçilərimiz 56 medal qazanmış (21 qızıl, 15 gümüş, 20 bürünc) və ölkəmiz 50 ölkə arasında ikinci yerə çıxmışdır. Bax, budur əsil zəfər, əsil dönüş, əsil Qələbə !

Xüsusi olaraq qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bütün Olimpiya Oyunları zamanı idmancılarımızın yanında olmuş, onları dəstəkləmişdir. Yenicə başa çatmış birinci Avropa Oyunları zamanı da cənab Prezident və Oyunların təşkilat komitəsinin sədri, ölkənin birinci xanımı Mehriban Əliyeva bütün final yarışlarını izləmiş, oyunculaın qazandığı medalları onlara cənab dövlət başçısı şəxsən özü təqdim etmişdir. Uğurlu nəticə də özünü göstərmişdir. Bu, oyunçularımızı yarışlara daha yüksək səviyyədə ruhlandırmış və onların qələbə əzmini artırmışdır.

Bütün bunlar bizdə inam yaradır ki, idmançılarımız gələcək bütün yarışlara daha yüksək səviyyədə hazırlaşacaqlar.

**Nadir ATAKİŞİYEV.**

# Əmək və əhalinin sosial müdafiəsi naziri Qəbələdə vətəndaşları qəbul etmişdir

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov Qəbələdə bu rayonun, eləcə də Şəki, Oğuz, Balakən, Zaqatala, Qax rayonlarının sakinlərini fərdi qaydada qəbul etmişdir.



Qəbul zamanı vətəndaşlar əsasən dövlət büdcəsi hesabına mənzil və minik avtomobilləri ilə təmin olunmaq, bərpa-müalicəyə kömək edilməsi, məşğulluğun və istehsalat xəsarətinə görə müavinətin təminatı, əmək hüquqlarının müdafiəsi, peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb olunma və digər məsələlərlə bağlı müraciət etmişlər. Hər bir müraciət nazirliyin aidiyyəti struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə diqqətlə araşdırılaraq cavablandırılmışdır. Səlim Müslümov tərəfindən bir sıra müraciətlərdə qaldırılan məsələlərin qısa vaxt ərzində həllini tapması, ayrı-ayrı vətəndaşların bərpa-müalicəsinə kömək göstərilməsi, lazımi reabilitasiya avadanlıqları, əlilliyi olan şəxslərin sanator-kurort yollayışı ilə təmin olunması və s. barədə aidiyyəti strukturlara tapşırıqlar verilmişdir.

Nazir qəbul zamanı Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2014-cü il 20 iyun tarixli Sərəncamının icrasının uğurla davam etdirildiyini vurğulayaraq qeyd etmişdir ki, indi respublikanın demək olar ki, bütün bölgələrində müharibə əlilləri və şəhid ailələri üçün mənzillər tikilir. Eləcə də hazırda Bakıda 96 mənzilli, İmişli, Beyləqan rayonlarında hər biri 54 mənzilli, Şamaxı rayonunda 36 mənzilli yaşayış binaları inşa olunur. Bununla bərabər, Bakıda, Sumqayıtda, Gəncədə, Mingəçevirdə istismara hazır binalardan alınmış mənzillər təmir edildikdən sonra qeyd olunan təbəqələrə aid şəxslərin istifadəsinə veriləcəkdir. Digər tərəfdən, ölkənin regionlarında 379 fərdi ev, o cümlədən Qəbələ rayonunda 3, Şəki rayonunda 6, Oğuz rayonunda 5, Balakən rayonunda 3, Zaqatala rayonunda 16, Qax rayonunda 3 ədəd fərdi ev inşa olunduğunu bildirmişdir. Səlim Müslümov həmin binaların bu il ərzində istifadəyə veriləcəyini, bütün növbədə olan müharibə əlilləri və şəhid ailələrinin yaxın illərdə mənzillə təminatının həll ediləcəyini söyləmişdir.

Ayrı-ayrı şəxslərin minik avtomobilinə tibbi göstərişinin olub-olmamasının müəyyənləşdirilməsi məqsədilə onların müayinəsinin aparılması barədə göstəriş verən nazir bildirmişdir ki, müharibə əlillərinin və onlara bərabər tutulan şəxslərin minik avtomobili almaq üçün növbədə sayının artması ilə əlaqədar şəffaflığın təminatına ciddi nəzarət edilir.

Qəbul zamanı işə düzəlmək üçün müraciət edən şəxslərin məşğulluğunun təminatına yerindəcə kömək göstərilmişdir.

Ünvanlı sosial yardım və əlillik təyinatı ilə bağlı müraciətlər azlıq təşkil etmişdir. Lakin həmin müraciətlərin obyektiv araşdırılması və konkret tədbirlərin görülməsi nəzərddə tutulmuşdur. Bir sıra müraciətlər isə nazirliyin fəaliyyət sahələrinə aid olmadığından onlar müvafiq qurumlara göndərilməsi üçün qeydiyyata götürülmüşdür.

**Foto S. Umuyevindir.**